www.kitabxana.net

Milli Virtual Elektron Kitabxana

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" N 09 (59 - 2016)

**Dəstəgül Zamanlı**

# "Əçummən mara bədur"

# "Gözümdən getmə uzaq"

Tat və Azərbaycanca poetik toplu

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**YYSQ – 2016**

Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

**www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana**

**"Gənclərin Virtual Multikulturalizm Mərkəzi"**

**Elektron kitab N 09 (59 - 2016)**

Bu elektron nəşr Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun (#AzGF) maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər Qurumunun həyata keçirdiyi "Gənclərin Virtual Multikulturalizm Mərkəzi" kulturoloji-intellektual layihəsi çərçivəsində www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana tərəfindən nəşrə hazırlanıb və yayılır.

**Kulturoloji layihənin bu hissəsini qismən maliyyələşdirirlər:**

**Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu: http://youthfoundation.az**

Yeni Yazarlar və Sənətçilər Qurumu: http://www.yysq.org

# Dəstəgül Zamanlı

## "Əçümmən mara bədur"

## "Gözümdən getmə uzaq"

Tat və Azərbaycanca poetik toplu

Müəllif tərcüməsi və redaktəsində

YYSQ tərəfindən e-nəşrə hazırlanıb. Milli Virtual-Elektron Kitabxananın e-nəşri. Bakı - 2016

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

**"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" silsiləsindən olan e-kitablarla buradan tanış olun:**

http://kitabxana.net/?oper=e_kitabxana&cat=174

**Feysbuk səhifəmiz:**

Sosial şəbəkələrdə Azərbaycan multikulturalizminin və tolerantlığının təbliği ilə bağlı fəaliyyətlərin genişləndirmək, bu sahələr üzrə İnternet resurslarımızı - elmi-intellektual sərvətlərimizi, araşdırma, tədqiqat işlərini təbliğ etmə üçün ayrıca virtual resurs burada:

https://www.facebook.com/YeniYazarlar



**DİQQƏT!**

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin və resurs yaradıcılarının razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

# Tat dilində

# şeir və bayatılar

## Əçümmən mara bədur
## (Gözümdən getmə uzaq)

Mən türə bixo dürüm,
Hiç əz tü sir nə bürüm.
Tüsüz munum, ümmürüm,
Əçümmən mara bədur.

Mən səni yuxuda gördüm,
Neç səndən doymadım.
Sənsiz qalsam ölərəm,
Getmə gözümdən uzaq.

Birahhomən poyisdi,
Tü bəruzmən doyisdi,
Əsəlmən, mənə xosdi,
Əçümmən mara bədur.

Yollarımda dayandın,
Sən dalımca qaçdın.
Balım, məni istədin,
Gözümdən getmə uzaq.

***

Hicran bomun xəndisdey,
Bə kuçəho vəngəsdey,
Bomun rahorə basdey,
Əçümmən mara bədur.

Hicran bizə gülübdür,
Küçələrə salıbdır.
Bizimçün yolları kəsib,
Gözümdən getmə uzaq.

***

Ümürmənə afdeyi,
Bədülmən darafdeyi,
Dərdhomənə yofdeyi,
Əçümmən mara bədur.

Ömrümün günəşisən,
Ürəyimə girmisən.
Dərdlərimi tapmısan,
Gözümdən getmə uzaq.

***

Bəcunmən nə mund dözüm,
Bil bötü mən naz sözüm,
Bötü xiffət misözüm,
Əçümmən mara bədur.

Canımda qalmıb dözüm,
Sənə qoy mən naz edim.
Sənsiz xiffət edərəm,
Gözümdən getmə uzaq.

***

Çü koşdum, çü kohur bu,
Ərs bəçümmən nohur bu,
Dərdi-sərmən yə ümür,
Xəndisdənmən yohur bu.

Nə əkdim, nə göyərdi,
Yaş gözümdə göl oldu.
Dərdi-sərim bir ömür,
Gülməyim bir az oldu.

***

Şo mən, ruz mən ruz nəbu,
Fələk bəmən düz nəbu,
Xosdum bi dərd qəhr tüyüm,
Aşuq omo, saz nəbu.

Gecəm, günüm gün olmadı,
Fələk mənlə düz olmadı.
İstədim dərdə acıq verim,
Aşıq gəldi, saz olmadı.

***

Saxdi xəzəl, zərd mənə,
Kulək vögüfd bərd mənə,
Həzorto loğman boşu,
Nəmudunu dərdmənə.

Etdin xəzəl, sarı məni,
Külək götürdü, apardı məni.
Min dənə loğman olsa,
Bilməyəcək dərdimi.

***

Varasd ruz, güroşt mohho,
Virixd əçümmən xoho,
Fələk bəmən oyun voxd,
Təhno mundum birahho.

Bitdi gün, keçdi aylar,
Qaçdı gözümdən yuxular,
Fələk mənlə oyun oynadı,
Tənha qaldım yollarda.

***

Doğmahorə yod dürüm,
Bə hər yeki yod bürüm,
Bəmən suxdə üzgərə,
Yodə, durə dusd dürüm.

Doğmaları yad gördüm,
Hər birinə yad oldum.
Mənimçün yanan özgəni,
Yadı, uzağı dost gördüm.

***

Piyərmən nə, moymən hist,
Bəmən to yə kəsi nist,
Keşrəmənə nəmdunu,
Nə düşmən, nədeyiş dust.

Atam yoxdu, anam var,
Mənə tay kimsə yoxdu.
Çəkdiyimi bilməz ki,
Nə düşmən, nə də ki, dost.

***

Nə vokordi dərmənə,
Üzgə bimən zo tənə.
Biyo nüş, məniş bülüm,
Bə zinitü sərmənə.

Açmadın qapımı,
Özgə mənə tənə vurdu.
Gəl otur, mən də qoyum,
Dizin üstə başımı.

***

Diyə vasal daraft ki,
Dülməniş o bu raft ki,
Bon sər dünyo rah keşi,
Çümmən bi xo nə raft ki...

Daha bahar girdi ki,
Ürəyim su olub axdı ki.
Dünyanın o başına yol çəkdi,
Gözüm yuxuya getmədi ki...

***

Umruz yə xəbər omo,
Bico əs yəhər omo,
Bötüroz sıxan saxdum,
Səstü yətəhər omo.

Bu gün bir xəbər gəldi,
At yerinə, yəhər gəldi.
Sənin ilə danışdım,
Səsin bir təhər gəldi.

***

Zumusdun bu, kulək bu,
Cun  ə  fikir hələk bu.
Türə  bəmənoz  kortü,
Hə ə süfdə kələk bu.

Qış oldu, külək oldu,
Can fikirdən həlak oldu.
Sənin mənimlə işin,
Elə əzəldən kələk oldu.

***

Un qədə tüsüz mundum,
Türə ə dül nəşundum.
Siyə saxdi ruzmənə,
Ə nəğültü vomundum.

O qədər sənsiz qaldım,
Səni ürəyimdən atmadım.
Qara etdin günümü,
Nağılından yoruldum.

***

Bil mən quyum, tüyüş dun,
Bə zinhor omorey cun.
Mənə çunun fürmundi,
Diyə məgi bə zuhun.

Qoy mən deyim, sən də bil,
Zinhara gəlibdir can.
Məni elə aldatdın,
Daha tutma dilə.

***

Əz mən dəs keş, tü buro,
Əxişdəntü mədüro.
Ruza əsüfdeyi bu,
Umunə rahmun cüro.

Məndən əl çək, sən get,
Özündən çıxma.
Günün əvvəlindən oldu,
Bizim yollarımız ayrı.

***

Ə gireyisdən bürom kur,
Dülmən bidərdovoz pur.
Mənə təhno nohori,
Çinəm rafdi tü bəqur?

Ağlamaqdan kor olmuşam,
Ürəyim dərd ilə dolu.
Məni tənha qoydun,
Necə getdin sən gora?

***

Kuhə usdarey ohmən,
Tü bireyi günohmən.
Qu ki mür, bisən mürüm,
Mən nükərüm, tü şohmən.

Dağı alıbdır ahım,
Sən olmusan günahım.
De ki, öl, öləcəyəm,
Mən nökərəm, sən şahım.

***

Fələk dərd do ziyodə,
Nəşinoyist fəryodə.
Dəsmən bötü nərasi,
Tüyüş gürüfdi yodə.

Fələk dərd verdi, ziyadə,
Eşitmədi fəryadı.
Əlim sənə çatmadı,
Sən də tutdun yadı.

***

Hoçər dülmən bidəstü,
Çü bu fikirtü, qəsdtü,
Mənsüz cun dəri, mənə
Bəfikirtü vəngəsdi?

Ürəyimin açarı əlindədi,
Nədi fikrin, qəsdin?
Mənsiz can verdin, məni-
Yadına saldınmı?

***

Sibi bu kuhə səri,
İn çü dərd bu, tü dəri.
Çü saxdum ki, mən bötü,
Ə hovo bixor zəri.

Ağardı dağın başı,
Bu nə dərd idi, sən verdin?
Nə etdim ki, mən sənə,
Havadan yerə vurdun?

***

İn arkərə Pirsəhət,
Oyi birey beş qəhət,
İcozə tin biyontü,
Biyom, nüşüm yə səhət.

Bu çay Pirsaatdır,
Suyu niyə qəhətdir?
İcazə ver, yanında,
Gəlim oturum bir saat.

***

Künor dihmun üşeyü,
Ənori güleyşeyü,
Tü məvokuf bədülmən,
Xürd mini, əşüşeyü.

Kəndimizin qırağı meşədir,
Narı gülöyşədir,
Sən dəymə ürəyimə,
Sındırarsan, şüşədir.

***

Avoz gürüfd nəfəsmən,
Nə omori bisəsmən,
Xosdum yə sıxan quyum,
Nə ufdari bidəsmən.

Yenə tutdu nəfəsim,
Gəlmədin səsimə.
İstədim bir söz deyim,
Düşmədin əlimə.

***

Bə kuh Bobo kuç omo,
Nə dunusdum beç omo.
Türə uncə nə dürüm,
Dünyo bəmən puç omo.

Babadağa köç gəldi,
Bilmirəm, niyə gəldi.
Səni orda görmədim,
Dünya mənə heç gəldi.

***

İn dərd dülmənə bərdey,
Zuhunmən qabar vordey,
Biyo, zumusdun varast,
Diyə gülho vokordey.

Bu dərd ürəyimi aparıb,
Dilim qabar gətirib.
Gəl, qış da qurtardı,
Daha güllər açılıb.

***

Omo duhun-bəduhun,
Suxd bə duhunmən zuhun,
Yə xəbər nə dunusdi,
Biri sanq, biri ohun.

Gəldi ağız-ağıza,
Yandı ağzımda dilim.
Bir xəbər  bilmədin,
Oldun daş, oldun dəmir.

***

Hasundu busdun koşdən?
Oyə püşeyrə doşdən?
Şohunqumiş, səbəhiş,
Çümmən türə bigeşdən.

Asandı bostan əkmək?
Suyun qabağın almaq?
Axşam da, səhər də,
Gözüm səni axtarır.

***

Ənor omo, bih omo,
Bə püşo çümmən dih omo.
Bə fikirmən ufdari,
Ə sər dülmən oh omo.

Nar gəldi, heyva gəldi,
Gözümün önünə kənd gəldi.
Yadıma düşdün,
Ürəyimin başından ah gəldi.

***

Tü bə rumən xəndisdi,
Mənə biçol vəngəsdi.
Çinəm bu ki, ben salho,
Nə dunusdum tü kisdi.

Sən üzümə güldün,
Məni quyuya saldın.
Necə oldu ki, bu illərdə,
Bilmədim ki, sən kimsən?

***

Hə vir saxdum, hə yofdüm,
Bötü yə cürüb bofdüm,
Xo dürüm türə imşo,
Geşdüm, geşdüm, nə yofdüm.

Elə itirdim, elə tapdım,
Sənə bir corab toxudum.
Yuxuda gördüm səni gecə,
Axtardaım, axtardım, tapmadım.

***

Mənə şundi bi tənur,
Dəsdürə əz mən məbur.
Qufdürund əmorəni,
Külgetü ufda ə dur.

Məni atdın təndirə,
Əlini məndən kəsmə.
Dedilər,  gəlirsən,
Kölgən düşdü üzaqdan.

***

Tüsüz mundənmən qey bu,
Piyoləmən pur mey bu,
Çunun həsrət keşi ki,
Dülmən xürdə ney bu.

Sənsiz qalmağım çox oldu,
Piyaləm dolu mey oldu.
Elə həsrət çəkdi ki,
Ürəyim sınıq ney oldu.

***

Dərdə bimən bor dəri,
Mundum dərdə bəziri.
Xuda, bötü çü saxdum,
Bəmənoz düşmən biri.

Dərdi mənə bar verdin,
Qaldım dərdin altında.
Allah, sənə neylədim,
Mənimlə düşmən oldun?

***

Dögüfdəmən ol, sibi,
Bəmən usdan şol, sibi.
Boğ-boğçərə veçirom,
Hələ mundey kol, sibi.

Geydiyim aldı, ağdı,
Mənimçün al, şalı ağ.
Bağ-bağçanı yığmışam,
Hələ qalıb kal, alması.)

***

Xır vögüfdey sər kuhə,
Pəhni saxdey ru mohə.
Əgəm keşund, mirasu
Bi moh, mən keşrə ohə.

Duman alıb dağ başın,
Gizlədib Ayın üzün.
Əgər çəksələr, çatar,
Aya, mən çəkdiyim ahlar.

***

Poriz bu, voriş vorisd,
Boğmənə bori varasd,
Xünük çunun suzund ki,
Dorhorə vəlgi parısd.

Payız gəldi, yağış yağdı,
Bağmın barı qurtardı.
Soyuq elə yandırdı,
Ağacların yarpağı düşdü.

***

Dülmən bidərd bürüşdey,
Fələk çunun nöyüşdey.
Mənə keşrə ohmənü,
Kuh Boborə şürüşdey.

Ürəyim dərddə bişib,
Fələk belə yazıb.
Mənim çəkdiyim ahdı,
Babadağı basıb.

***

Çü xub omo in ovoz,
Mənə fürmundi ovoz.
Kortürə çunun gi ki,
Quyum, hisdüm bötüroz.

Nə yaxşı gəldi bu avaz,
Məni aldatma yenə.
İşini elə tut ki,
Deyim, varam səninlə.

***

Kuhə səri qaleyü,
Kup-kohurü taleyi.
Bə ru dünyo ən şirin,
Bə moy-piyər baleyü.

Dağın başı qaladı,
Yam-yaşıldı talası.
Dünya üzündə ən şirin,
Ata-ana üçün baladı.

***

Kuləkhukord gülmənə,
Fələk keşi dülmənə,
Kukmən, vegi bədüşdü,
Tü bə qəbir bil mənə.

Külək tökdü gülümü,
Fələk çəkdi ürəyimi.
Oğlum, götür çiynınə,
Sən, qəbirə qoy məni.

***

Hovo birey, Xor birey,
Boğçə birey, bor birey,
İn dünyorə korhoyrə,
Hər kəs duru, puç direy.

Hava olub, Yer olub,
Bağça olub, bar olub.
Bu dünyanın işlərini,
Hər kəs yalan, puç görüb.

***

Tü ki, mənə kukməni,
Nunməni, nümükməni.
Büyo, mənə çunun gi,
Bi poy düşmən xok məni.

Sən ki, mənim oğlumsan,
Çörəyimsən, duzumsan,
Gəl, məni elə tut ki,
Düşmən ayağına torpaq etmə.

***

Ümürmən bu ki, zəhər,
Beşmun nə vokfu xətər.
Mən moyum, arzumən hisd,
İşmun boşind bəxdəvər.

Ömrüm oldu ki, zəhər,
Sizə dəyməsin xətər.
Mən anayam, arzum var,
Siz olasız bəxtəvər.

***

Vəx bisərpoy, kəm girey,
Dəniş, düşmən şohr birey.
Türə ben ruz nohrəqor,
Hiç bisəbəh nədürey.

Dur ayağa, az ağla,
Bax, düşmən şad olub.
Səni bu günə qoyan,
Heç sabaha çıxmasın.

***

Dərdü-sərtü dor boşu,
Bi sər dültü mar boşu,
Mənə ki, gireyundi,
Türiş çümtü tar boşu.

Dərdi-sərin ağac olsun,
Ürəyinin başında ilan olsun.
Məni ki, ağlatdın,
Sənin də gözün yaş olsun.

***

Munund ben rah piyərə,
Əsərşun dürey dürə.
Xuvoruntü kur boşu,
Qarundund xunetürə.

Bu yolda piyada qalsınlar,
Başlarından tüstü çıxsın.
Bacıların kor olsun,
Dağıtdılar evini.

***

Sanqu rahə künori,
Ə rah sulla homori.
Ə dəsmən nəgürüfdi,
Tü çinəmnə bürori.

Daşdı yolun qırağı,
Yoldan o yana düzənlik,
Əlimdən tutmadın,
Sən necə qardaşsan.

***

Cilid basdey arkərə,
Xünük umbuy, band dərə.
Vəxi bomun çay biyor,
Mənüş, ay birorzərə.

Buz bağlayıb çay,
Soyuq olar, ört qapını.
Dur bizimçün çay gətir,
Oturma ay qardaş qızı.

***

Nisdü moymən,piyərmən,
Tü büror boş, xuvor mən.
Rafdum, geşdüm qürbətə,
Mənə keşi diyormən.

Yoxdur nə anam, atam,
Sən qardaş ol, mən bacı.
Getdim, gəzdim qürbəti,
Məni çəkdi diyarım.

***

İn xunərə toxçeyi,
Gülü boği, boğçeyi,
Həçunun dun cənnətü,
Vətənmənə hər coyi.

Bu evin taxçası,
Güldü bağı-bağçası.
Elə bil ki, cənnətdi,
Vətənimin hər yeri.

***

Tü kisdi ay erməni,
Tü ki, nükər dər məni.
Bə külgə üzgəho nüş,
Ə mərdi sıxan məni.

Sən kimsən ay erməni,
Sən ki, nökərisən qapımın.
Özgə kölgəsində otur,
Mərdlikdən söz eləmə.

***

Vozi  dara “Naznazi”,
Biyo, məni  mız-mızi,
Bötü sıxan qufdürüm,
Tü beş biri qirmizi.

Oyna “Naznazı”,
Gəl eləmə mız-mızı .
Sənə söz söylədim,
Niyə oldun qırmızı?

***

Tü bə nummən basdi gül,
Bi basdetü bisdo gül,
Mən gülə çübsaxdanum,
Nummən hisdü Dəsdəgül.

Sən adıma bağladın gül,
Bağladığında iyirmi gül,
Mən gülü neyləyirəm,
Adım var, Dəstəgül.

***

Bə  mən nədəri dinci,
Məband şolə norinci,
Türə əzmən saxdaqor,
Vünüm mundey zorinci.

Mənə dinclik vermədin,
Şalı narıncı bağlama.
Səni məndən eyləyən,
Görüm qalıb zarıncı.

***

Hə bədülmən vəngəsdüm,
Bə ru dərdmən xəndisdüm,
Fələk fürmund sərmənə,
Gufdi, bötüroz dusdum.

Elə ürəyimə saldım,
Dərdin üzünə güldüm.
Fələk başımı aldatdı,
Dedi, səninlə dostam.

***

Bi sərmən hisdü şolmən,
Dərdho xısrey bədülmən.
Sıxan tüyüm, misözüm,
Zomonliyü nəsilmən.

Başımda  vardır şalım,
Dərdlər yatıb ürəyimdə.
Söz versəm, eləyərəm,
Zamanlıdı nəslim.

***

Alaçuğum, bineyüm,
Ben nəxüş yə dəneyüm,
Çunun təhno mundom ki,
Məniş bon dor xuneyüm.

Alaçığam, binəyəm,
Bu naxışda bir dənəyəm.
Elə tənha qaldım ki,
Mən də o ağaca oxşayıram.

***

Türə  cotü dur əncə,
Məqu poyə bur əncə.
Dünyo  tüsüz besd mənə,
Biyo, məniş bər əncə.

Sənin yerin uzaqdır burdan,
Demə, ayağını kəs burdan,
Dünya, sənsiz nəyimə gərək,
Gəl, məni də apar burdan.

# Azərbaycan

# dilində

# Yeni şeirlər

*“Ax...Necə kef çəkməli əyyam idi,*
*Onda ki, övladi vətən xam idi...”*
*M. Ə. Sabir*

Sənsən ey ustad, ulu yurdun piri,
Varmı sənintək vətənin pərvəri?
Sən demisən, yüz desələr- yox yeri,
Hey dolanır tərsinə dövran, geri...
Eyni ol əyyama dönübdür tamam,
İndi də övladi vətən xamdı, xam...

Çox da ki, var şöhrəti, dünya şanı,
İndi bu yurdun pozulub səhmanı,
Yoxdu bu xalqın hələ ki, imkanı,
Qovsun elindən Aşotu, Vartanı...
Var ürəyində hələ də xoş məram,
İndi də övladi vətən xamdı, xam...

Çoxları çəkməkdədi ki, zilləti,
Alver edib saxlaya həm külfəti,
Çox kəsin aldatmaq olub adəti,
Var sözünün hər zamanda hikməti,
Başdan aşır, çoxdu halaldan haram,
İndi də övladi vətən xamdı, xam...

Rüşvətə məmur hələ də quldusa,
Haqq yolu namərdə gedən yoldusa,
Hər işə əncam yenə də puldusa,
Fərq eləməz kim danışa, ya susa,
Var pula hərçənd nə qədər ehtiram,
İndi də övladi vətən xamdı, xam...

Qoy deyim ustad, sən eşit halətin,
Kim kimədir, kim talayır sərvətin...
Dadına yetmək bu yesir millətin,
Olacaq bir daha bundan çətin...
Varsa da ellərdə nizam-intizam,
İndi də övladi vətən xamdı, xam...

Dəstəgül ismimdi, Zamanlı soyum,
Yoxdu mənə arxa duran daydayım.
Sözdü düşən bəxtimə, sözdür payım,
Söylədim ustad, sənə çatsın hayım.
Könlümü mən, açmağa tapdım məqam,
İndi də övladi vətən xamdı, xam...

Bu nə avazdır edir könlümü şan-şan, Sənsiz.
Dayanıb qəsdimə, açmaqdadı meydan, Sənsiz.

Bu vida nəğməsimi, ney kimi inlər rüzgar,
Ələyir dərdimi göydən yerə nisan, Sənsiz.

Kəsilib nağməsi, ötmür yenə gülsüz bülbül,
Olmuşam qönçəsi solmuş bağa bağban, Sənsiz.

Nədən öyrətdin özün sevməyi, sonra getdin,
Boş  qəfəsdir dolu dünya, mənə zindan Sənsiz.

Həsrətin könlümə layla çalıb ovsunlarkən,
Dolanır dövrəmə aşkar yenə hicran, Sənsiz.

Daha yoxdur yeri dərdin, gileyin, dərmanın,
Ayrılıq qoydu bu şad könlümü viran, Sənsiz.

Dəstəgül, çəkdi nə zillət elə yandı, dandı,
Yazdı sənsizliyə dair yeni dastan, "Sənsiz".

*"Pərvanə kimi yandı könül narə desinlər."*
*Mirzə Məhəmmədhəsən Nalə*

Qıydın mənə, tənhadı bu çağında - desinlər,
Sənsiz, qəmin iz saldı yanağında- desinlər.

Gəzdikcə xəyalın başım üstündə, görənlər-
Ruhun dolanır sanki otağında- desinlər.

Bənzər anasız körpəyə könlüm, nə ovunmaz,
Hər dəm adın əzbərdi dodağında, desinlər.

Səhrada susuz gül kimi qoydun məni sənsiz,
Qıydın, saralıb-soldu budağında- desinlər.

Qıymazdı sevən, sevdiyi qalsın gözü yaşlı,
İnsafmı, qalıb indi sorağında- desinlər.

Sənsiz cahanı tərk edəcək Dəstəgül, onda-
"Gəl, həsrətinin öldü qucağında"- desinlər.

*“Şahini əvvəl-axır öldürəcəkdir həsrət,*
*Öləcəkdir yıxılıb, əvvəl-axır pəncərədən.”*
***Şahin Fazil***

Elə zülmət gecədi, Ay da baxır pəncərədən.
Baxıram, boynuna ulduz da taxır, pəncərədən.

Uzadıb əllərini, insafı yox ayrılığın,
Yenə könlüm dəlini qəmlə sıxır, pəncərədən.

Süzürəm badəsinə, həsrət içir göz yaşımı,
Sanıram, göy üzünün dərdi yağır pəncərədən.

Qısılır qoynuma dərdim, ovudur həsrətini,
Baş alır xatirələr, sel tək axır pəncərədən.

Döyünür quş kimi köksümdə ürək, çırpınaraq-
İstəyir tərk eləsin, sanki çıxır pəncərədən.

Sökülür dan yeri, küskün baxışım mürgü vurur,
Gözləyir gün çıxacaq əvvəl-axır,- pəncərədən.

Yanaraq Dəstəgülün halına, Şahin də deyir-
“Öləcəkdir yıxılıb heyf, fağır - pəncərədən”.

Yarəb, necə yazdın mənə bir yazı, yarımçıq,
Qıydın niyə, solsun bu gülün yazı, yarımçıq.

Tale deyə alnımda qaraldıb, nəsə cızdın,
Aldın çoxu, verdin niyə bəs, azı yarımçıq.

Başdan daşa dəydi, paralandı qara bəxtim,
Bilməm necə narazı qalım, razı, yarımçıq.

Sevda gölünün onda ki, ruhum sonasıydı,
Durnası köçüb, tərk eləyib qazı, yarımçıq.

Könlümdə məhəbbət dolu dünyamı uçurdub,
Qoydun kəsə, bülbül kimi avazı, yarımçıq.

Bilmir nədi şənlik, qan axır şən ürəyimdən,
Sızlar qəm əlindən, çalınıb sazı yarımçıq.

Əfv et məni Yarəb, qulunam, Dəstəgüləm, bil,
Batmış qəmə könlüm, itirib nazı yarımçıq.

**Sənli dünyam**

Sanardım ki, şəkərdi,
Noğuldu sənli dünyam.
Məni  göyə çəkərdi,
Nağıldı sənli dünyam.

Üzümə güldü "qədər",
Gözümdən itdi kədər,
Ömrümdə ən bəxtəvər,
Çağ oldu sənli dünyam.

Yarpaq-yarpaq bükdüyüm,
Ümid, arzu əkdiyim,
Qayğısını çəkdiyim,
Bağ oldu sənli dünyam.

Bəxtdən paydın əlimdə,
Nəğmə idin dilimdə,
Saçımın hər telində,
Sığaldı sənli dünyam.

Qəsdə durdu fələklər,
Yandı  göydə mələklər,
Əsdi dəli küləklər,
Dağıldı sənli dünyam.

Həyat demə əyləncə,
Sevmək əzab, işgəncə,
Ürəyimdə ölüncə,
Dağ oldu sənli dünyam.

**Özümsən axı**

Özümü aldadıb, danmaram səni,
Fikir-xəyalımda, sözümsən axı.
Xəyalın hər zaman izləyər məni,
Arxamca sürünən izimsən axı.

Şəklin gözlərimdə ömürlük durub,
Yoxluğun canımda qanı dondurub,
Həsrətin ömrümü yaxıb, yandırıb,
Odum-ocağımsan, közümsən axı.

Saçımda qar oldun, kipriyimdə qor,
Qəmli baxışımdan çəkilməyən tor,
Bütün varlığımda nəfəsin ki, var,
Unuda bilmərəm, özümsən axı.

## Əlin əlimdə olsa

Ayrılıq dönər heçə
Əlin əlimdə olsa...
Çəkilər zülmət gecə
Əlin əlimdə olsa...

Dərdim göyə sovrular,
Yanar, yanar, qovrular.
Bəxtim başdan yoğrular,
Əlin əlimdə olsa...

Könlüm körpəyə dönər,
Elə köklənər, dinər.
Sevinər, gülər-əgər,
Əlin əlimdə olsa...

Sözüm sevgi qoxuyar,
Ruhum nəğmə oxuyar,
Gedər əldən ixtiyar,
Əlin əlimdə olsa...

Kədərim çıxar gedər,
Əriyər, axar gedər.
Əlimi sıxar gedər,
Əlin əlimdə olsa...

Salaram qəmi dərdə,
Könlüm ağlamaz bir də.
Bəsimdi quru yer də,
Əlin əlimdə olsa...

Səni sevən bəndəyəm,
Ürək deyən dindəyəm,
Görərsən ki, səndəyəm,
Əlin əlimdə olsa...

Bu meyl, elə meyl ki...
Gəl, ay sevdamın ilki...
Dünya batan deyil ki,
Əlin əlimdə olsa...

**Yuxuma gəl, yuxuma**

Sənsizləmişəm elə...
Yuxuma gəl, yuxuma.
Yuxumu tutub dilə,
Yuxuma gəl, yuxuma.

Baharsa da, qış mənəm,
Dilsiz qaya, daş mənəm.
Fikirdən çaş-baş mənəm,
Yuxuma gəl, yuxuma.

Taxtdan düşər şah ayrı...
Sevinc ayrı, ah ayrı...
Can ayrıdı, ruh ayrı...
Yuxuma gəl, yuxuma.

Əs, sərin külək kimi,
En, göydən mələk kimi,
Gecəmdən qovub qəmi,
Yuxuma gəl, yuxuma.

Ömrüm qəmə bürünür,
Qəm əlində sürünür,
Göydə ulduz görünür,
Yuxuma gəl, yuxuma.

Sənsiz küskün haldayam,
Elə qeylü-qaldayam,
Sənə tərəf yoldayam,
Yuxuma gəl, yuxuma.

## Unudur səni

Bir zaman gözlərin məni gəzərdi,
Əzərdi bir ani yoxluğum səni.
Üzümdə ötəri qəmi sezərdin,
İndi yanağımda görmürsən nəmi,
Gözüm damcı-damcı, axıdır səni.

Silinir qəlbimdən sevdalı illər,
Solur ürəyimdə əkdiyim güllər.
Sənsiz yaşadığım, o sənli günlər
Çəkir aramıza dumanı-çəni,
Silir xatirəmdən yaddaşım səni.

Durnalar köç edir, payız köçəndə,
Xəyalım səfləşir durna köçündə.
Xəzan yarpaqları hüzn  içində,
Andırır vəfasız məhhəbətini,
Unudur xəyalım, unudur səni.

**Satır qəm məni**

Çatıb kürəyimə bir dünya yükü,
Alıb qabağına, qatır qəm məni.
Bu dünyada yerim daralan təki...
Özgə bir ocaqda çatır qəm məni.

Qovur həyatımın sərt yollarında,
Yayın qızmarında, qışın qarında,
Divlərin qorxulu nağıllarında,
Gedər-gəlməz yolda atır qəm məni.

Qismətdən tən düşüb gündüzüm, gecəm,
İstədim adlayıb, dərdimdən keçəm,
Bəxtimin əlində dəyərsiz, heçəm,
Qara qul eyləyib, satır qəm məni.

**Qayıtmaz geriyə**

Yoxluğun əzdikcə sınıq qəlbimi,
Sükutun dillənər lal dodağımda.
Gözüm damcı-damcı süzdükcə qəmi,
Kədərin güllənər al yanağımda.

Çökər aramıza həsrətin çəni,
Düşdükcə yadıma sevdalı günlər.
Qaytarar anbaan yaddaşım səni,
Ürəyim sızlayar, kövrələr, inlər.

Xəyalım qoşular durna köçünə,
Ovutmaz hayını sonsuz asiman.
Düşər yarpaq-yarpaq arxın içinə,
Qayıtmaz geriyə, qayıtmaz zaman.

**Xəyalın**

Yenə pərvaz edib göylərə quştək,
Məni qanadına aldı xəyalın.
Gah qəmə kökləndi, gah dindi kövrək,
Məni haldan-hala saldı xəyalın.

Baxardı üzümə gülər üz ilə,
Alardı könlümü bircə söz ilə,
Elə şirin-şirin gələrdi dilə,
Sevgi dünyamızda baldı xəyalın.

İndi, göy üzündən yerə damıram,
Nə gecə yatıram, nə göz yumuram,
Dilindən bir kəlmə, bir söz umuram,
Həsrət qapısında laldı xəyalın.

Bilmirəm alqışmı, qarğış idimi,
Könlümü ovudan baxış idimi,
Bəxtdən Dəstəgülə naxış idimi,
Səndən nişanətək qaldı xəyalın.

## Qəm üstə yeriyirəm

Düşürəm min hala, yada salanda,
Mənsiz bu dünyanı tərk etməyini.
İnciyib, həsrətin acı sonunda,
Dərdini götürüb tək getməyini...

Dərdimin kül altda qalan közündən,
Alışıb, içimdə əriyirəm mən.
Elə bezirəm ki, özüm-özümdən,
Baş alıb qəm üstə yeriyirəm mən.

Əcəl sinən üstə gəlib qonanda,
Görən bircə anlıq saldın yadamı?
Fikrindən keçdimmi görən son anda,
Dilə gətirdinmi mənim adımı?

Elə titrək olub indi səsim də,
Daha dodağımda donub gileyim.
Qaldı ürəyimdə, son nəfəsimdə,
Sənin qollarında ölmək istəyim.

Bir də sənli çağım gəlməz ki, ələ,
Çəkərəm dərdini ölənə kimi.
Xəyalın nazımla oynayar hələ,
Mən sənin yanına gələnə kimi.

**Yenə də yuxu**

Bu gecə yenə də yuxuma gəldin,
Tutub əllərimdən, "gəl qaçaq"-dedin.
"Bax sənə gəlmişəm"- şirincə güldün,
"Qoşa göyərçinik, gəl uçaq"-dedin.

"Bir də göy üzündən yerə enməyək,
Yerdə ayrılmışıq, göydə bir olaq.
Dönək cüt ulduza daha sönməyək,
Zülmətin içində sehir, sirr olaq".

Ulduzlu səmada uçduqca qoşa,
Həsrətin sədası itdi səsimdə.
Çırpındı ürəyim, döndü bir quşa,
Bitdi dilimdəki umu- küsüm də.

Sanki mələk idik göyün üzündə,
Biz  idik göylərdə qoşa bəxtəvər.
Dedin-"Qoymaram ki, qalsın gözündə,
Gülüm, həsrətimdən zərrəcə əsər"...

Bu dəm yaxasını açdı qaranlıq,
Ayrıldı əlindən əlim, oyandım.
Bəxtəvər olmağım oldu bir anlıq,
Yenə göy üzünü sənsiz dolandım.

## Özümü aldadıram

Könlümə səsin düşür,
Özümü aldadıram.
Gündür, elə ötüşür,
Özümü aldadıram.

Yalanına inanıb,
Gümanıma sığınıb,
Tənhalığımı danıb,
Özümü aldadıram.

Yığdım yoldan gözümü,
İtirsəm də dözümü.
Atıb umu-küsümü,
Özümü aldadıram.

Təkcə bəxtimdən küsüb,
Elə daş kimi susub,
Dərdi bağrıma basıb,
Özümü aldadıram.

Demə unudar məni,
Sıxır dörd divar məni,
Məntək dəli var yəni,
Özümü aldadıram.

**Ölüb Dəstəgül**

Ömür bağçasından kədəri dərib,
Dərdinin üzünə, gülüb Dəstəgül.
Bir dəli həsrətə könlünü verib,
Dərdini dərd ilə, bölüb Dəstəgül.

Qohumu, qardaşı, eli tərk edib,
Həyat nağıl imiş, bunu dərk edib,
Sözün dəryasına elə ərk edib,
Gözünün yaşını, silib Dəstəgül.

Həyat, qəm ilməli bir əriş-arğac,
Ürəyi sındıran dərd, qəm, ehtiyac,
Doymur əməlindən fələk, gözü ac,
Dünyanın işini bilib, Dəstəgül.

Yenə qana dönüb bağrının içi,
Yetib son mənzilə ömrünün köçü,
Aşkarda gəlməyə çatmayıb gücü,
Hər gecə yuxuna  gəlib Dəstəgül.

Daha əyməyəcək boynunu dərdə,
Nə də görəcəklər ağlayan bir də.
Dayandığı yerdə, durduğu yerdə,
Bir də görəcəklər, ölüb Dəstəgül.

## Gözlərim dola-dola

Dikib baxışlarını,
Uzaqda itən yola,
Gözləmir bir kimsəni,
Gözlərim dola- dola.

Bilinmir ki, niskili,
Nə boyda, biçimdədir.
Alovu dilim-dilim,
Yanğısı içimdədir.

Düşüb gözümdən, itib,
Sevinci qəm təkləyib.
Yerində həsrət bitib,
Sapsarı çiçəkləyib.

Büküb boynunu, baxır,
Sevdasını danıbdır.
İçində yağış yağır,
Çölü də islanıbdır.

## Gecikən sevda

Yayın sonlarıydı biz görüşəndə,
Mənə  tanış gəldi isti baxışın.
Duydum istisində, sərinliyini-
Ömrümə gecikmiş yağan yağışın.

Sən çıxdın qarşıma, gələrək dilə
Sınıq ürəyimin titrədi simi.
Sən çıxdın qarşıma, bildim ki, elə
Sənsən  könlümdəki, silən dərd, qəmi.

Görüşdük əl-ələ ilk dəfə o gün,
Sandım tanışıyıq min-min illərin.
Ürəyim, ovcumda açılmaz düyün,
Çəkib ürəyimi aldı əllərin.

Bir şirin istəklə, gizli həvəslə,
Könlüm məhəbbətin düşdü sehrinə.
Dindirib ovutdun  şirin bir səslə,
İsindi  səsinin, könlüm mehrinə.

Şirin arzularla döyündü ürək,
Çırpındı ümidlə, dindi ahəstə.
Çıxdı, ruhumuza sığal çəkərək,
Bu gecikən sevda yolumuz üstə.

Birlikdə bataraq bir günahına,
Bu eşqin oduna birlikdə yandıq.
Sığındıq Tanrının biz, dərgahına,
Bəxtin  ikimizə payıdır sandıq.

**Bir dünyam var**

Bir dünyam var, ümid adlı,
Bir ağ gündən soraq gəzir.
Arzularım qol- qanadlı,
Uçur, məndən uzaq gəzir.

Məni bir eşq harayladı,
O bayatı, o layladı.
Davam ağla, qarayladı,
Dedilər ki, boyaq gəzir.

Ürəyim tuş olub daşa,
Viranədi başdan-başa,
Ruhum  dönüb qərib quşa,
Qonmaq üçün budaq gəzir.

Çəkilibdi səbrim tarım,
Çiliklənib xəyallarım,
Dilimdə lal suallarım,
Düşüb o dağ, bu dağ gəzir.

Dərd içimdə, kiriyirəm,
Dərd içində əriyirəm,
“Qəm  üstündə yeriyirəm”,
Görən deyir, qıvraq gəzir.

Var öz dərdi, öz aləmi,
Həsrət dəmi, vüsal dəmi,
Bir dünyam var, nağıl kimi,
Eldə dodaq-dodaq gəzir.

Elə qonub söz çiynimə,
Geyinmişəm köz, əynimə.
Olmayacaq ta eynimə,
Qələm əldə varaq gəzir.

Sözdü məni tutub dilə,
Sözdü yarım innən belə.
Qoy desinlər Dəstəgülə,
"-Bu, Züleyxa sayaq gəzir".

## Sən oldun

*“Mən səndən ayrılıb, getməmişəm ki,*
*Ayrılıq, əlimdən tutub, apardı.”*
*Ə.Səda*

Eşqinin şəklini qəlbimə çəkdim,
Sonsuz həsrətini gözümdə əkdim,
Mən onu heç kimə verməyəcəkdim,
Əlimdən almağa yetən, sən oldun.

Düşdüm həyatımın sənsizliyinə,
Demədim günahkar, demərəm sənə.
Dönüb xəyallara, gözümdən yenə,
Durna qatarı tək ötən, sən oldun.

Bu, bəxtin alnımda yazısıydımı,
Yoxsa ki, qəsd edib fələk qıydımı?
Bilmirəm, taleyin qəzasıydımı,
Ömrümdən qırılan, itən sən oldun.

Bu eşqin könlümdə itməz ki, yeri,
Ölüncə yerində bitməz ki, qeyri.
Min ildən sonra da, qayıdıb geri,
Bəlkə də, yerində bitən, sən oldun...

## Nədən özgəsini yar eylədin bəs?

Min il bundan əvvəl qisməti, yarı,
Mən idim könlünün, yada sal barı...
Demişdin, baxmaram özgəyə sarı,
Nədən özgəsini yar eylədin bəs?

Bu yeni həyatda görüşdük yenə,
İndi sən özgənin, özgəyəm sənə,
Sən ki, deyəcəkdin "sevgilim"mənə,
Nədən özgəsini yar eylədin bəs?

O vaxtdan keçsə də əsrlər, illər,
Dünyadan köçsə də neçə nəsillər,
Tapdı yarısını sevən könüllər,
Nədən özgəsini yar eylədin bəs?

Ötənlər yaddaşdan silinməz demə,
Yadımda xatirən edir zümzümə,
Deyirdin, tək sənsən həmdəm ömrümə,
Nədən özgəsini yar eylədin bəs?

Deyirdin alnımın qırışındasan,
Gözümün boylanan baxışındasan,
Sən mənim bəxtimin naxışındasan,
Nədən özgəsini yar eylədin bəs?

Hər axşam yananda göy ulduz-ulduz,
Deyirsən, yuxuma gəlirsən tez-tez,
Mənəmsə yuxuda gördüyün o qız,
Nədən özgəsini yar eylədin bəs?

İndi söyləyirsən, əzəldən birik,
Olaq bir günaha ikimiz şərik,
Ümidin vardısa biz görüşərik,
Nədən özgəsini yar eylədin bəs?

Sən məndən özgəni sevəcəkdinsə,
Məni özgəsinə verəcəkdinsə,
Qayıdıb könlümə girəcəkdinsə,
Nədən özgəsini yar eylədin bəs?

Oynatma könlümü yerindən belə,
Nə, uşaq deyiləm tutasan dilə,
Gəl indi cavab ver, sən Dəstəgülə,
Nədən özgəsini yar eylədin bəs?

## Könlüm şeir istəyir

Geyinib elə göyçək,
Hər yan nazlı gəlintək.
Gülür xallı kəpənək,
Çiçəyin yanağında...
Könlüm şeir istəyir.

Lalə açır gözünü,
Şehlə yuyur üzünü.
Bahar deyir sözünü,
Söyüdün saçağında...
Könlüm şeir istəyir.

Dilə gəlir bulaqlar,
Çətirlənir qovaqlar.
Pıçıldaşır yarpaqlar,
Bir eşqin sorağında...
Könlüm şeir istəyir.

Gözüm xəyala dalır,
Üzümə kölgə salır.

Dəcəl bir uşaq olur,
Ömrümün bu çağında...
Könlüm şeir istəyir.

Sənsiz könlümün simi,
Ötür qərib səs kimi.
Sönür bir həvəs kimi,
Kədərin ocağında...
Könlüm şeir istəyir.

Meh oxşayır telimi,
Xəfif bir sığal kimi.
Dinir könlümün simi,
Həsrətin qucağında...
Könlüm şeir istəyir.

## Ala bilməz

Bir dünyam var- Sən adında, Sən qoxulu,
Bir az sevinc, bir az kədər, qəm toxulu,
Vüsal, həsrət, hicran dolu, qəm yuxulu...
Ala bilməz kimsə məndən, bu dünyamı.

Bir dünyam var - aranı  Sən, dağı Sənsən,
Xoşbəxtliyi, ən fərəhli çağı Sənsən,
Ürəyimin yanğısı Sən, dağı Sənsən...
Ala bilməz kimsə məndən, bu dünyamı.

Bir dünyam var - sevə bilməz özgəsini,
Silə bilməz kimsə onun qüssəsini,
Xəyalların salıb ora kölgəsini...
Ala bilməz kimsə məndən, bu dünyamı.

**Qaytar mənə o günləri**

Ən qayğısız, şən günlərdi,
Qaytar mənə o günləri.
Onda könlüm bəxtəvərdi,
Qaytar mənə o günləri.

Çağırım, səs ver səsimə,
Ətrin dolsun nəfəsimə.
Dön, ən əziz bir kəsimə,
Qaytar mənə o günləri.

Sənsiz ruhum qəfəsdədi,
Sanki əlacsız xəstədi.
Bil ki, canım can üstədi,
Qaytar mənə o günləri.

Səndən dönməz ürəyimdi,
İçindəki göynəyimdi.
Hava, su tək gərəyimdi,
Qaytar mənə o günləri.

Ahəngiylə, sədasıyla,
Nəvazişi, ədasıyla,
Od-alovu, xətasıyla,
Qaytar mənə o günləri.

Gəl, bəxtəvər olaq yenə,
Ürəyimi verim sənə.
Dön geriyə, qaytar mənə,
Qaytar mənə o günləri.

## Gəlmədin

Gün keçdi, ay dolandı,
Unutdun əhdi, andı.
Verdiyin vəd yalandı...
Gəlmədin...

Yuxum  gözümdən qaçdı,
Baş alıb göyə uçdu.
Sənsiz sabahı açdı...
Gəlmədin...

Həsrətin gözü göydü,
Yanmış, özünü öydü.
Kimsə qapımı döydü...
Gəlmədin...

Saçıma bir əl endi,
Könlüm uşağa döndü.
Kürdü, dil açdı, dindi...
Gəlmədin...

Yuxuda gördüm səni,
Yazdım sənə nəğməni.
Ürəyin daşdı yəni?
Gəlmədin...

Könlüm haqqın aşığı,
Sənsiz yox yaraşığı.
Sən, ay gözüm işığı,
Gəlmədin...

**Ürəyim qəm daşıyır**

Gör, neçə vaxtdır sənsiz,
Ürəyim qəm daşıyır.
Həsrətinlə, xəyalın,
Gözümdə cüt yaşayır.

Dərd göynədir içimi,
Tənha bir qərib kimi.
Vaxt aparır köçümü,
Sığallayır səbrimi.

Göydən düşən daş kimi,
Düşüb bəxtin gözündən,
Axmaqdayam yaş kimi,
Taleyimin üzündən...

## Gözlərimdən

Ürəyimdə var nələr,
Öyrən gəl, gözlərimdən.
Nə deyir xatirələr,
Oxu bil, gözlərimdən.

Bəxt məni salıb oda,
Gəncliyim gedib bada.
Sevinc deyib əlvida,
Edib əl, gözlərimdən.

Tənhalıq necə yetib,
Bil, necə səbrim itib.
Dönüb xəyala ötüb,
Neçə il, gözlərimdən.

Ömrüm qırıq tar simi,
Daha yox zili, bəmi.
Dərd əridib yağ kimi,
Axıb sel, gözlərimdən.

Bil ki, halım necədi,
Ürəyim boş küçədi.
Gündüzüm də gecədi,
Ayır, böl, gözlərimdən.

Bax, gör, çəkdiyim aha,
Sanki batıb günaha.
Şən kimi ötmür daha,
Susub dil, gözlərimdən.

Gəl, inadı tərk elə,
İstəyimi dərk elə.
Qəmi, mənə ərk elə,
Özün sil gözlərimdən.

## Yaddaşımdasan

Ötüb neçə fəsil, keçib neçə il,
Könlümün göynəyən yaddaşındasan.
Bilirəm o illər qayıdan deyil,
Mənim xəyalımda, o yaşındasan.

Gözümün kökünü saraldıbsa da,
Sənin həsrətini əzizləmişəm.
Günümün üzünü qaraldıbsa da,
Tək sənin yolunu mən gözləmişəm.

Ürəyim hələ də nazlı gəlindi,
Kövrək arzulara beşik asıram.
Budaqdan asılan yarpağam indi,
Ömrün payızına qucaq açıram.

O vaxtdan bu günə, istəyirəm ki,
Kaş bilə biləydin keçdim nələrdən.
Daha öz bəxtimdən küsməyirəm ki,
Xəyalım su içir xatirələrdən.

**Adət eyləmə**

(Sevdiyi oğlana yalan deyən qızlara)

Qızlar yaranıblar tər çiçək kimi,
Gəl, yalan deməyə adət eyləmə.
Günahı olmayan bir mələk kimi,
Gəl, yalan deməyə adət eyləmə.

Qızlar qönçələnib çətirlənərlər,
Dönüb qızılgülə ətirlənərlər,
Sevgi misrası tək sətirlənərlər,
Gəl, yalan deməyə adət eyləmə.

Qızların həyası yanar üzündə,
Sevgi çiçək açar, gülər gözündə,
Duyular gül ətri hər bir sözündə,
Gəl, yalan deməyə adət eyləmə.

Yalan çiçəkləyər, yalan bar eylər,
Sənə dünya boyda qəmi yar eylər,
Gün gələr dünyanı sənə dar eylər,
Gəl, yalan deməyə adət eyləmə.

Yalan, düz yolundan azdırar səni,
Günahkar cərgəyə yazdırar səni,
Bir gün budağından asdırar səni,
Gəl, yalan deməyə adət eyləmə.

Yalan sazağından solar məhəbbət,
Yalanı söyləyən edər xəyanət,
Qızlara yaraşmaz gülüm, bu adət,
Gəl, yalan deməyə adət eyləmə.

Oğlanlar əhdinə düz istəyirlər,
Gözünə düz baxan göz istəyirlər,
Yalan qızartmayan üz istəyirlər,
Gəl, yalan deməyə adət eyləmə.

Yalanın içində itər dincliyin,
İtər sevdiyin kəs, bitər dincliyin,
Bir zaman içində ötər gəncliyin,
Gəl, yalan deməyə adət eyləmə.

**Son zəngimiz**

Tilsimdir ya, bu nə səsdir,
Bu səs bizi əsir edir.
Təkrar olmaz xatirədir,
Bu şən avaz, son zəngimiz.

Ana məktəb, çiçəkli bağ,
Ötdü günlər varaq-varaq,
Gələcəkdən verir soraq,
Bu şən avaz, son zəngimiz.

Boy atdıqca düymə-düymə,
Dil də açdıq kəlmə-kəlmə,
Bir naxışdır ilmə-ilmə,
Bu şən avaz, son zəngimiz.

Xatırladır o dənizi,
Təlatümü üzür bizi,
Bəzəyidir ömrümüzün,
Bu şən avaz, son zəngimiz.

## Nənə olmuşam

Gözün aydın ay ana,
Mən də nənə olmuşam.
Şükr olsun Yaradana,
Mən də nənə olmuşam.

Dövlətdən dəvəm gəlib,
Övladdan nəvəm gəlib,
Təzədən üzüm gülüb,
Mən də nənə olmuşam.

Gəlib pələngim, şirim,
Gəlib qoçağım, nərim,
Gəlib qəndim, şəkərim,
Mən də nənə olmuşam.

Nəğmədir "inqə" səsi,
Çiçək ətri nəfəsi,
Nə şirindi nəşəsi...
Mən də nənə olmuşam.

## Gəl, başına dolanım

*(Nəvəm Əlinin gəlişinə)*

Bəsdir eylədin nazı,
Gəl, başına dolanım.
Gətir ömrümə yazı,
Gəl, başına dolanım.

İntizar çəkir ürək,
Gəl ay körpəm, ay mələk,
Yalvarım sənə gərək?
Gəl, başına dolanım.

Gəl ki, mən sevim boyun,
Sevinsin xalan, dayın.
Oynama mənlə oyun,
Gəl, başına dolanım.

Sənsən söhbətim, sözüm,
Sənsən ürəyim, gözüm.
Sənə qurbanam özüm,
Gəl, başına dolanım.

## İki yaşın mübarək

Nənə qurban adına,
İki yaşın mübarək!
Şipşirin, bal dadına,
İki yaşın mübarək!

Sən nəvədən birincim,
Var-dövlətimdə incim,
Ay fərəhim, sevincim,
İki yaşın mübarək!

Danışırsan məzəli,
Hərəkətin gülməli.
Ən şirin dünyam –Əli,
İki yaşın mübarək!

Ağ gün olsun naxışın,
Gülsün daim baxışın.
Yüz ili ötsün yaşın,
İki yaşın mübarək!

**Atılmış uşaqlara...**

Dünyanın gözündən baxan,
Bir uşaq gəldi yuxuma.
Dərd idi gözündən axan,
Süzüldü yaşı yaxama.

Gördüm elə sığal çəkib,
Bəzəyib kədər telini.
Sinəsinə qəhər çöküb,
Bağlayıb şirin dilini.

Baxışları qan edirdi,
Yaya dönmüşdü əsəbi.
Sükutu üsyan edirdi,
Tutmuşdu bəxtə qəzəbi.

Bu körpənin yoxdu suçu,
Tənhalığa qısılmışdı.
Yoxdu həyat, işıq ucu,
Gözündə qəm asılmışdı.

Uyuşmurdu bu yaşına,
Sızlamağı için-için.
Əlimi dərdli başına,
Çəkdim, ovutmaq üçün.

Dünyanın gözündən baxıb,
Bu uşaq aldı yuxumu.
Gördüm, özü yoxa çıxıb,
Dərdi buraxmır yaxamı.

*Bakıda hündürmərtəbəli ev yandı,*
*16 nəfər günahsız dünyaya əlvida dedi.*
*Onların içində körpələr də vardı...*

O günü bir şirin nağıldı dünya,
Sən demə var imiş fələyin qəsdi.
Qəfildən alışdı, dağıldı dünya,
Bürüdü binanı amansız tüstü.

Bilinmir haradan əsdi bu külək,
Dağıldı ocaqlar, yandı ürəklər.
Büründü atəşə pərvanələr tək,
Can verdi günahsız, körpə mələklər.

Qalxdı ərş üzünə o gün hay-haray,
On altı nəfərin taleyi döndü.
Bu dərdi əks etməz söz də, ay haray,
On altı ocağın çırağı söndü.

Ey fələk, körpələr süd yuxuluydu,
Varmı betər zülmün, bundan o yana.
Körpə nəfəsləri yaz qoxuluydu,
Laylay əvəzinə, vay dedi ana.

O gün ürəklərin dərdini duydu,
Geyindi qaranı əlvan qərənfil.
O gün məzarlara başını qoydu,
Bu dərddən qovrulan, yanan qərənfil.

Ananın səbrini ovuda bilməz,
Mələk körpələrin günahsız qəbri.
Tarix yaddaşını unuda bilməz,
Çatlayır, sökülür vətənin səbri.

Bağrımız "Qarabağ" ahlı, naləli,
Vuruldu üstündən bir də bu yara.
Hələ də üzümüz "Vətən" kölgəli,
Bu boyda zilləti daşıyaq hara?

Bilinmir dünyanın namərdi, mərdi,
Tanınmır yatanı, kimdi oyağı.
Qatıb başımızı dünyanın dərdi,
Dünya olub indi, bir qan çanağı...

## Payız lövhələri

Yenə payız gəlir, saralır dağlar,
Dəyişir donunu, yamyaşıl geyir.
Əlvan örpəyini örtür ağaclar,
Baxıb bir-birinə nə gözəl deyir.

Yaşayır təbiət son baharını,
Kövrəlir göy üzü ərköyün kimi.
Verir bağça-bağlar bəhrə-barını,
Başlanır qızılı yarpaq tökümü.

Dağların başına bəyaz çən düşür,
Tutulur göylərin qaşı-qabağı.
Gecələr ayazlı, çənli ötüşür,
Solur çəmənlərin güllü yanağı.

Köçüb qaranquşlar gedir bu yerdən,
Bu yerin gölünə ördək, qaz gəlir.
Durnalar küsübmü, nədir bu yerdən,
Meydanda tək qalır yetim sərçələr.

Bənzəyir halıma payızın halı,
Çökür ürəyinə həsrət havası.
Torpaq üstə salıb xəzəldən xalı,
Çalır qərib-qərib həsrət laylası.

## Pəri qalası

Əlşatmaz zirvədir, şahanə durub,
Dağların başında Pəri qalası.
Keçib qərinələr, illəri yorub,
Dağların başında Pəri qalası.

Başının üstündə şimşəklər çaxır,
Buludlar gözünün yaşını sıxır,
Boylanır keçmişdən, qürurla baxır,
Dağların başında Pəri qalası.

Bir gözəl pərini o qoruyaraq,
Pərçim qayalarda qalıbdır oyaq,
Durub hüzurunda kəcavə sayaq,
Dağların başında Pəri qalası.

Qayalar qoynunda eşq odasıdır,
Məhəbbət məkanı, eşq adasıdır,
Bir sevgi nağılı, eşq butasıdır,
Dağların başında Pəri qalası.

Meşələr günəşə açanda ətək,
Hər  yan göz oxşayır, açılır ürək,
Dayanıb nağıllı "xan sarayı" tək,
Dağların başında Pəri qalası.

Tarixin incisi, ləli, dürrüdür,
Hələ də açılmaz qalan sirridir,
Əsil sevənlərə sınaq yeridir,
Dağların başında Pəri qalası.

## Lerik dağları

Vüqarı, qüruru alıb çiyninə,
Nə boran, nə tufan gəlmir eyninə.
Yaşıl meşələri geyib əyninə,
Düzülüb cərgəyə, Lerik dağları.

Ağarır zirvənin başında qarı,
Süzülür daş altdan büllur suları.
Təbiət sərgisi, sal qayaları,
Alıbdır dövrəyə, Lerik dağları.

Döşəyir xalını yamacda, yalda,
Hər daşı, qayası çobana dalda,
Sürünü cığırdan, elatı yoldan,
Aparır zirvəyə, Lerik dağları.

Alır ətəyinə duman gədiyi,
Oxuyur nəğməni turac, kəkliyi.
Qayadan qayaya səkir əliyi,
Bənzəyir bərəyə, Lerik dağları.

Titrədir çiçəyi sübhün nəfəsi,
Hər daşı tarixin sirr, nişanəsi.
Sanki hörüyüdür hər şəlaləsi,
Atıbdır kürəyə, Lerik dağları.

Zərin qalası var, Zuvand bulağı,
Şahnişin, Kömürköy əlvan yaylığı.
Uca zirvələri qartal oylağı,
Qürurdu hərəyə, Lerik dağları.

Xanbulaq nəğməsi silir qubarı,
Oğlan qalasının Qız qala yarı...
Boylanır o taya, Savalan sarı,
Oxşayır gərdəyə, Lerik dağları.

Dəstəgül bu yurdu dolandı, gördü,
Alınmaz qaladı, cənnət bir yerdi.
Qoynunda hər insan unudur dərdi,
Məlhəmdi ürəyə, Lerik dağları.

## Qışın ilqarı

Geyinib əyninə ağ libasını,
Təbiət qış ilə bağlayar ilqar.
Çalmalı başında bir eşq havası,
Dağlar zirvəsini bakirə saxlar.

Çayların hay-küyü qış gələn zaman,
Dönər lal sükuta, lal dərələrdə.
Qalxar dərə boyu qatı, ağ duman,
Çəkər zirvələrə bəmbəyaz pərdə.

Dəlicə küləklər özün yetirər,
Cığırlar hənirə intizar qalar.
Baxıb ətrafına köksün ötürər,
Saxlar qürurunu bomboz qayalar.

Havası ərköyün bir qız ürəyi,
Gündə neçə hala düşər, dəyişər.
Dağların çiynindən bəyaz örpəyi,
Gah zirvəyə, gah da yerə sürüşər.

Gözləyər qızarsın dağ yanaqları,
Çırtlasın çiçəyi, ərisin qarı.
Həzincə dillənsin lal bulaqları,
Nazlanıb yerisin vüsala sarı...

## Qocalma, Şahin Fazil

*"Daşladı,*
*Fələk məni daşladı.*
*Cavanlığım bitməmiş,*
*Qocalığım başladı..."*
***Şahin Fazil***

Söyləmə ki, qocalıram,
Gəl qocalma, Şahin Fazil.
Söylə, qəmdən bac alıram,
Gəl qocalma, Şahin Fazil.

Ömrün yolu yoxuş, eniş,
Ürəyin saf, qəlbin geniş,
Sən tarixdən bizə danış,
Gəl qocalma, Şahin Fazil.

Ürəyində var nə qədər,
Taqət, dözüm, sevgi, təpər,
Ölkələrə eylə səfər,
Gəl qocalma, Şahin Fazil.

Üzə durar bəzən zaman,
Yaxşıya da açar meydan.

Yarat hələ neçə "Divan",
Gəl qocalma, Şahin Fazil.

Sən ki, çəmən aşiqisən,
Sünbül, süsən aşiqisən,
Həm də Vətən aşiqisən,
Gəl qocalma, Şahin Fazil.

İnsan varmı, olsun dağsız,
Gözün yaşlı, Qarabağsız,
Fırlanmada dövran haqsız,
Gəl qocalma, Şahin Fazil.

Alimlərin aqilisən,
İnsanların kamilisən,
Şairlərin fazilisən,
Gəl qocalma, Şahin Fazil.

Eh, çox da ki, ağarıb baş,
Ömr edəsən yüz əlli kaş,
Qoy fəsillər qalsın çaş-baş,
Gəl qocalma, Şahin Fazil.

Dəstəgüləm, duydum qəmi,
Bir söz deyim qoy səmimi.
Sevdim səni ata kimi,
Gəl qocalma, Şahin Fazil.

**Elnarə**

Var  Şirvanın bülbül kimi bir qızı,
El qızıdı, ellə gülür Elnarə.
Tuti kimi şirin dili, avazı,
Könüllərdən qəmi silir, Elnarə.

Bulaq kimi sərin-sərin çağlayır,
Bulud olur, həzin-həzin ağlayır,
Aşiq olub, əhdi-peyman bağlayır,
Ana yurdu yarı bilir, Elnarə.

Harayında ana, vətən dərdi var,
Avazında zildən, bəmdən pərdə var,
Ürəyində  dünya boyda yer də var,
Ürəyini ellə bölür, Elnarə.

Ovundurur, gülün yarı bülbülü,
Qarabağdan  küsən xarı bülbülü.
Haraylayır cəngə, sarı bülbülü,
Düşmənlərin bağrın dəlir, Elnarə.

Bu yanğıyla insan ötər, ya bülbül?
Naləsini duyub, yanar qızılgül.
Cəh-cəh vurma, sən də sus ki, a bülbül,
Cəh-cəhiylə, bağə gəlir Elnarə!..

## Mahir həkimin

*SQ-nin Baş Klinik Xəstəxanasında T/x polkovnik-leytenantı,onkoloq-cərrah, nəcib insan Mahir Məmmədova həsr olunur.*

Ələnib başına illərin qarı,
Minlərlə ürəkdə var etibarı.
Xəstə duasıdı dövləti, varı,
Əlləri şəfalı Mahir həkimin.

Xəstənin hayına özün yetirər,
Əcəlin əlindən alar, ötürər.
Baxışı nurludu, üzü gülümsər,
Əlləri şəfalı Mahir həkimin.

Görəndə xəstəsi çətin yeriyir,
Nurlu simasını qayğı bürüyür.
Əlinin altında şiş də əriyir,
Əlləri şəfalı Mahir həkimin.

Dünyanın felinə uymaz ürəyi,
Nə xəstəni darda qoymaz ürəyi.
Yaxşılıq etməkdən doymaz ürəyi,
Əlləri şəfalı Mahir həkimin.

Nəfsi də, könlü də bilirəm toxdu,
Nə varda, dövlətdə gözü də yoxdu.
İnsan, həkim kimi sevəni çoxdu,
Əlləri şəfalı Mahir həkimin.

Bilmirəm mələkdi, yoxsa insandı,
Adi həkim deyil, o bir loğmandı.
Pozulmaz ilqarı, həkimlik andı.
Əlləri şəfalı Mahir həkimin.

## Dəniz, qaytar balamı

*Gözünün ağı-qarası, bircə oğlunu əlindən*
*dəniz almış, Astara rayonundan olan*
*Göyçək ananın dərdinə yandım...*

Başıma saldın daşı,
Yandı bağrımın başı.
Sandınmı məni naşı,
Dəniz, qaytar balamı...

Bu qəsd idi, ya oyun,
Görüm qurusun suyun.
Heç sevmədim ki, boyun,
Dəniz, qaytar balamı...

O, tək pənahım idi,
Taxtımda şahım idi.
Nəfəsim, ruhum idi,
Dəniz, qaytar balamı...

Bağım, bəhərim idi,
Axşam, səhərim idi,
Qüvvəm, təpərim idi,
Dəniz, qaytar balamı...

Qaraltdın zamanımı,
Kəsdin tək gümanımı,
Aldın din-imanımı,
Dəniz, qaytar balamı...

Baxtımdan ağzım yandı,
Günüm dərdə boyandı,
Zülmün ərşə dayandı,
Dəniz, qaytar balamı...

Qəm yedim, şükr eylədim,
Balam böyüyüb dedim,
Mən ki, yetimdar idim,
Dəniz, qaytar balamı...

Acizmi gördün məni,
Ahım yandırsın səni.
Belə zalımsan yəni,
Dəniz, qaytar balamı...

## Analar anama laylay dedilər

*Azərbaycan xalqının sevimli sənətkarı*
*Səyyad Əlizadənin anasının vəfatına*
*həsr olunur*

Yumub gözlərini, yatdı körpə tək,
Analar anama laylay dedilər.
Uçdu göy üzünə, yerdəki mələk…
Analar anama laylay dedilər.

Ayrıldı taxtından analar şahı,
Yandırdı göyləri könlümün ahı.
Elə ki, canından ayrıldı ruhu,
Analar anama laylay dedilər.

Getdi, qayıtmadı isti nəfəsi,
Daha qulağıma gəlməz nəfəsi.
Şirin dillərində həsrət nəğməsi,
Analar anama laylay dedilər.

O, bir günəş idi, qüruba endi,
Gözünün ziyası qaraldı, söndü,

Gözümün önündə nağıla döndü,
Analar anama laylay dedilər.

Daha sığallamaz əli, üzümü,
Anasız nə tənha sandım özümü…
Uşaqtək ovcuma sıxdım gözümü,
Analar anama laylay dedilər.

Anamdı könlümün pak bir dünyası,
Həzin bayatısı, şirin laylası,
Anamsız, gözümün itdi röyası,
Analar anama laylay dedilər.

“Bəmbəyaz libası əyninə geyib,
Anan, anasına qovuşdu”- deyib,
Yorğun dizlərinə hüznlə döyüb,
Analar anama laylay dedilər…

## Payıza bənzəyir halım

Payıza bənzəyir halım,
Elə dolub, ağlar gözüm.
Dağ döşündən axıb gələn,
Bulaq olub, çağlar gözüm.

Payıza bənzəyir halım,
Qəm çalır könlümün simi.
Titrəyir qəmin əlində,
Əsim-əsim, yarpaq kimi.

Payıza bənzəyir halım,
Ümidlərim yuxuludur.
Geydiyi xəzan köynəyi,
Hicran, həsrət qoxuludur.

Payıza bənzəyir halım,
Payız kimi saralıram.
Yetmədiyim o sevdaya,
Yuxularda yar oluram.

Payıza bənzəyir halım,
Ömrüm, durna köçü, ötür.
Sıralanıb göy üzündən,
Lələk-lələk düşüb, itir.

# DÖRDLÜKLƏR

***

Bədin adətidir, bəd söz söyləmək,
Bədlikdən yoğrulub çünki xisləti.
Şəri, iftiranı silah eyləmək,
Qandan gəlir bədin, bədlik niyyəti.

***

Dərd eləmə gəl, dərdimi,
Həmdəm olub hicran mənə.
Yazan yazıb tərs, bəxtimi,
Vurulubdur könlüm qəmə.

***

Şimşək çaxa-çaxa tökəndə yağış,
Sanıram, göylərin bağrı sökülər.
Üz tutub göylərə eyləmə qarğış,
Göylərin naləsi yerə tökülər.

# Təkbeyt

Bir ocağam, istisiz,
Yanmaqdayam tüstüsüz.

***

Bu yollar ayırdı yenidən bizi,
Kaş ki, əbədilik qovuşduraydı...

***

Qaçmaq istəyirəm sənli yuxudan,
Yenə yuxularım sənsiz ötüşmür!

***

Oksigen qıtlığı, səs-küy əlindən,
Şəhərdə sərçə də gözə dəyməyir...

***

İndi-
bu sən,
o sən deyilsən.
Güneylərdə yağan
bəyaz qar kimi
əriyərdim
nəfəsində...
İndi
bu mən, bu sən.
Bu sən,
o sən deyilsən.
Gülüşlərində oyanıb
baxışlarında yanardım,
vardın,
vardın qəlbimdə,
uyğularımda.
Heç kəsin
girə bilmədiyi,
heç kəsin
görə bilmədiyi
könlümdə,
ayrılıqların
dərə bilmədiyi

gül idim.
Daha bu sən,
həmənki sən
deyilsən!
Ya-
bu mənim,
həyatım deyil!

***

Şəhərdən,
kənddən kənar-
meşədən uzaq,
üfüqlər bitən yerdə
görünən,
o tənha ağac-
ilğım kimi görünür...
Məhkumdur-
qızmar yayın,
nəfəs kəsən istisinə...
Qışın boranına,
dəlicə küləklərin
şıltaqlığına...
Hər dəfə yaz gələndə,
geyir yaşıl donunu,
darayır saçlarını.
Şirin arzu, ümidlə,
gözləyir eləcə...
Könlündə nisgil,
ruhunda qəriblik,
gözləri yolda...
Sərir öz kölgəsinə,
şipşirin həsrətini...

Pıçıldayır yarpaqlar,
budaqların üstündə...
Beləcə, ötür yay da...
Yenidən gəlir payız,
ötür onun üstündən.
Yam-yaşıl paltarını
boyayır nisgil ilə-
sarı, qızılı...
Göy üzündə buludlar,
sızlayır sızım-sızım.
Öz qəmini, kədərini,
çiləyir
aram-aram...
Tökür yarpaqlarını,
giley tək-
kəlmə-kəlmə...
Saysız, sonsuz "niyələr",
yeyir onu,
içindən...
Eehh...
Yamanca bənzəyir-
o tənha ağac ilə,
Tənhalığa,
məhkumluğumuz...

***

**B**ir vaxt vardı,
ürəyimdə
dincələrdin...
Gözlərimdə
gülərdin,
əylənərdin...
Özün məni
tərk etdin,
getdin...
Çıxdın ürəyimdən,
düşdün gözümdən...
İndi
gözləyirsən,
suallar
qarşısında...
Əllərin qoynunda-
aciz,
cavabsız...

***

**M**ənim
duyğularım
nə yalandı,
nə xəyal...
Sənli
günlərimin
həqiqətidir!
Hər dəm,
süzülür
xatirələrdən...
Gözümdə,
Sən...
Sənsizliyin
həqiqətində-
Sən,
mənimləsən!...

***

**D**əcəl,
şıltaq ləpələr,
sahilə yürüyürdü...
Yerin
ayaqlarına,
dənizi
sürüyürdü...
Bürümüşdü
sahili,
dənizin
göz yaşları...
Kövrəlib
ağlayırdı,
sahilin
sal daşları...
Bu gecə-
dənizi,
daşıyırdı
ləpələr...

***

**D**olaşdıqca
dağılmış dünyamın
xarabalığında,
tapıram
sınmış güzgünün
parçaları kimi,
xəyallarını...
Silirəm tozunu,
hər dəfə tapanda-
bir parçasını...
Baxıram özümə!
Özümü görürəm,
sənin gözünlə:
-bir az solğun,
bir az yorğun,
bir az dalğın,
fikri dağınıq...
Həsrətin-
dolanır başımda,
xaraba dünyamın
havası kimi...
Sonra xəyalların,
Ətir -

muncuq-muncuq,
gözlərimin
yaşında...

***

**Ö**mrümün
yazında,
gözümdən
düşən sevgin,
qalıb ürəyimdə-
gəzir,
hələ də...
Ömrümün
qışıdır,
ılıq nəfəsin,
əsir
ürəyimdə-
əsir,
hələ də...

***

**C**əmi
bir-iki qırış
sətirdə-
bir ömrü
yazmaq,
həmin qırışda
yozmaq-
çətin,
yalandı heyhat...
Yaza
bilmədiyim,
yoza
bilmədiyim
qalanı,
Həyatdı-
Həyat...

***

**B**ir sevdanın
həsrətini,
gözlərimə daşıtdın...
Yazılmayan
bir dastanın
sevincini yaşatdın...
Elə sandım,
kədərimə daş atdın...
Coşdum,
aşdım sıldırımdan.
Keçdim,
uca zirvələrdən.
Doldum- daşdım...
Axdım,
su tək dərələrdən...
Elə bildim,
dəlicə dağ seliyəm...
“Meydan açdı
yenə hicran təkliyə,
Ahım döndü
bir xınalı kəkliyə.”
Nə, ayrılıq bacarmadı,

mәni sәnsiz tәklәyә...
Elә bildim,
sәn bir bağın
bülbülü,
mәn dә-
qızılgülüyәm...
Bәnd-bәnd
hördüm
hәsrәtini.
Nağıl etdim
möhnәtini.
Yazdım,
hicran nәğmәsini...
Elә bildim
bu sevdanın,
hәr kәs duyan,
başa düşәn
diliyәm...
Neylәyim ki,
belәyәm...
Vallah, billah,
Dә-li-yәm!..

***

Göy üzündən enmisən?
Mənə elə doğmasan...
Bilmirəm-
tanıdığım,
bildiyim,
gözlədiyim
kəsmisən?
İstisini duyduğum,
mehrinə sığındığım,
ovunduğum,
sərin mehə bənzəyən,
həzin
o nəfəsmisən?
Çağlayan dağ çayının,
bulaq zümzüməsinin,
yarpaq pıçıltısının-
səsi kimi,
ana laylası kimi,
şirin nəğmə,
səsmisən?
Deyirsən-
Yer üzünə,
mənim üçün

gəlmisən...
Xoş gəlmisən ömrümə,
ömrüm-günüm!
Sən-
alnımın yazısı,
bəxtimin
qismətisən...
Bilirəm,
gəlmisən ki,
məni-
basıb bağrına,
aparasan
bu həyatdan
lap uzaqlara!
Ağrı-acı,
həsrət-hicran
olmayan,
ruhlarımız dolaşan
uzaq,
uzaq aləmə!
Göylərin
ən uca,
əl çatmayan qatına!
Di haydı,
ömrüm-günüm...
-"Yolçu,
yolunda gərək"...

-Yolçuluğumuz
mübarək!...

***

**B**ir gün, məni
görmək istəyəcəksən!
Gələcəksən!
Döyəcəksən qapımı...
Həyətdə oynayan
dəcəl uşaqlar,
heç sənə baxmayacaqlar da...
Təkcə-
tənha ağacın
solmuş yarpaqları,
əl edəcəklər sənə...
Açacaqsan qapımı,
ürəyin döyünəcək-
səsimi
eşitmək üçün...
Qarşına-
bir qız çıxacaq,
dəcəl, gülərüz!
Mat qalacaqsan,
mənə bənzəməyinə...
Əllərin əsəcək,
saçına
sığal çəkmək üçün...
Gözlərin dolacaq-

qəhər  tutacaq sinəni.
Səsin də çıxmayacaq,
adımı çəkməyə!
...Yarıaçıq qapıdan,
keçəcəksən içəri!
Ürəyin uçunacaq-
məni görmək üçün!
Səsim gələcək qulağına,
güləcəm,
şirin-şirin...
Gözün axtaracaq,
otaqları bir-bir!
Baxışların ilişəcək,
divardakı şəklimə!
Donacaqsan yerində!
-“Gülüm, sənə gəlmişəm,
bir bax, geri dönmüşəm!”-
bir vaxtlar olduğu kimi,
yalvaracaqsan yenə...
Şəklim baxacaq sənə,
lal-dinməz, gülümsər...
...Birdən eşidəcəksən:-
-“Ay ana, qapımızı,
külək açıbmış demə!..”
Başa düşəcəksən-
səni görməyiblər heç!

Anacaqsan yoxluğunu!
Görəcəksən yoxluğumu!
Dönəcəksən geriyə -
Kor- peşiman...